***Kərəm Mansurov.*** Azərbaycan Respublikası Prokurorluğunun formalaşması və inkişafı istiqamətləri // Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), s. 120-134. DOI: 10.61638/PPCV1581

# KONSTİTUSİYA HÜQUQU

## AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

KƏRƏM MANSUROV*

**Annotasiya**

*Məqalədə, prokurorluğun strukturunun inkişafı, fəaliyyət sahələrinin genişləndirilməsi və müstəqilliyinin təmin edilməsi ilə bağlı həyata keçirilən islahatlar ətraflı şəkildə təhlil olunur. Azərbaycanın prokurorluq orqanlarının müasir dövrün çağırışlarına cavab verməsi üçün kadr hazırlığı və təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiqi və hüquq sistemindəki digər islahatlar ön planda durur. Prokurorluq, ölkədə ədalətin təmin olunmasında, qanunçuluğun qorunmasında və vətəndaş hüquqlarının müdafiəsində mühüm rol oynayır. Bu məqalə, həmçinin Azərbaycanın hüquq mühafizə orqanlarının beynəlxalq hüquqla uyğunlaşmasını və gələcəkdə prokurorluğun inkişaf istiqamətləri barədə təkliflər irəli sürür. Məqalə ölkəmizin prokurorluq orqanlarının yaranması və inkişaf mərhələlərini nəzərdən keçirir. Prokurorluğun tarixçəsi, onun hüquqi və təşkilati strukturunun təkamülü, həmçinin müasir dövrdə qarşılaşdığı çağırışlar və müvafiq hüquqi islahatlar barədə ətraflı məlumat təqdim edilir. Məqalə, Azərbaycan Prokurorluğunun demokratik cəmiyyətin əsas hüquq-mühafizə orqanı olaraq inkişafını və dövlətin qanunçuluğunu təmin etmək istiqamətindəki rolunu vurğulayır. Eyni zamanda, müasir dövrün tələblərinə uyğun olaraq, prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, prokurorların peşəkar biliklərinin artırılması və hüquq mühafizə sistemindəki islahatların əhəmiyyəti qeyd olunur. Məqalə xüsusilə 1918-ci ildə əsası qoyulmuş Azərbaycan Prokurorluğunun Heydər Əliyevin rəhbərliyi altında müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulmasını və formalaşmasını ətraflı şəkildə izah edir. Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə, prokurorluq orqanlarının fəaliyyətində əhəmiyyətli dəyişikliklər edilmiş, hüquqi islahatlar həyata keçirilmiş və prokurorluğun müstəqil, güclü və səmərəli fəaliyyət göstərməsi üçün zəruri tədbirlər görülmüşdür. Bu islahatlar nəticəsində, Azərbaycan Prokurorluğu hüquq mühafizə orqanları arasında müstəqil və etibarlı bir qurum kimi formalaşmış, qanunçuluğun təmin edilməsi və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynamışdır.*

**Açar sözlər:** *prokurorluq, ədliyyə, məhkəmələr, ədalət mühakiməsi, istintaq, korrupsiya, insan və vətəndaş hüquqları, prokuror nəzarəti, cinayətkarlığa qarşı mübarizə.*

### *I. Giriş*

Azərbaycan Respublikasının prokurorluğu hüquq-mühafizə orqanları arasında mühüm yer tutan bir qurumdur. Prokurorluq, dövlətin qanunçuluğunu təmin etməklə yanaşı, cinayətkarlığa qarşı mübarizə aparmaq, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, eyni zamanda dövlətin təhlükəsizliyini təmin etmək kimi mühüm funksiyaları yerinə yetirir. Azərbaycan Prokurorluğu 1918-ci ildə yaradılmış və o vaxtdan etibarən müxtəlif dövrlərdə inkişaf edərək, müstəqil dövlətimizin hüquqi sistemində mühüm bir yer tutmuşdur.

Xüsusilə, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra, Heydər Əliyevin rəhbərliyi altında prokurorluğun fəaliyyətində əsaslı dəyişikliklər həyata keçirilmiş, hüquqi islahatlar ilə bu qurum daha müasir,

* Doktorant / Bakı Dövlət Universiteti / mansurovkerem@yahoo.com

müstəqil və güclü bir orqan kimi formalaşdırılmışdır. Prokurorluğun təkamül prosesində həyata keçirilən islahatlar, onun müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməsini və qanunun aliliyini təmin etməsini hədəfləmişdir.

Bu məqalədə Azərbaycan Prokurorluğunun yaranma tarixçəsi, inkişaf mərhələləri və müasir dövrün tələblərinə uyğun olaraq həyata keçirilən islahatlar nəzərdən keçiriləcəkdir. Eyni zamanda, prokurorluğun hüquq-mühafizə sistemindəki rolu, qarşılaşdığı çağırışlar və onun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri də müzakirə ediləcəkdir.

## *II. Azərbaycan Demokratik Respublikası və sovet hakimiyyəti dövründə prokurorluğun inkişafının hüquqi əsaslarının təhlili*

Azərbaycan dövləti müstəqilliyini elan etdiyi 28 may 1918-ci il tarixdən sonrakı ilk aylarda əvvəllər mövcud olmuş ədliyyə sistemi, o cümlədən məhkəmə və prokurorluq aparatı baş vermiş siyasi proseslərin təsiri nəticəsində tamamilə dağılmışdı. Gəncə dairə məhkəməsi və onun nəzdindəki prokurorluq formal olaraq mövcudluğunu saxlasa da, faktiki olaraq fəaliyyət göstərmirdi. Məhkəmə aparatı və prokurorluqda işləyənlərin əksəriyyəti öz işlərini ataraq çıxıb getmişdilər. Qəzalarda mövcud olmuş Sülh (barışıq) Məhkəmələri İnstitutu da tamamilə iflic vəziyyətində idi. Sülh (barışıq) məhkəmələrinin hakimləri iş yerlərini ataraq ölkəni tərk etmiş, məhkəmələrin əksəriyyətinin binaları isə qarət edilmiş, yandırılmış və ya məhv edilmişdi. Qeyd olunan səbəblərdən həmin dövrdə müstəntiq və prokurorlar da fəaliyyət göstərmirdilər. Bütün bunlar anarxiyanın və qanunsuzluğun genişlənməsinə, cinayətkarlığın artmasına şərait yaradırdı. Yerlərdə möhkəm inzibati hakimiyyət olmadığından törədilmiş cinayətlərin təhqiqatı da aparılmırdı.

Yeni yaranmış Azərbaycan Demokratik Respublikasında ictimai və dövlət həyatının hüquqi əsaslarını qısa müddətdə yaratmaq mümkün olmadığını və ölkədə qanunçuluğun və hüquq qaydasının bərpası və təmini müəyyən müddət köhnə qanunların saxlanılmasını tələb etdiyini nəzərə alaraq, Azərbaycan hökuməti 1918-ci il iyunun 23-də “Rus və Zaqafqaziya qanunlarının qüvvəsinin müvəqqəti olaraq saxlanılması haqqında” qərar qəbul edir. Həmin qərara görə, bütün idarəçilik və məhkəmə sahələri üzrə qüvvədə olan qanunlar Hökumət tərəfindən qanunla müəyyən edilən qaydada ləğv edilənə və ya dəyişdirilənə qədər öz qüvvəsini saxlayırdı. Müvafiq olaraq, Azərbaycanda məhkəmə-prokurorluq orqanlarının 1864-cü il məhkəmə islahatına uyğun olaraq təşkil edilmiş sistemi saxlanılırdı. Hüquq qaydasının təmini məsələsini həmişə diqqət mərkəzində saxlayan ADR hökuməti özünün 14 sentyabr 1918-ci il tarixli qərarı ilə Azərbaycan hüdudlarında barışıq məhkəmə idarələrinin bərpası üçün vəsait ayrılmasına göstəriş verdi [4, s. 475-476].

Ədliyyə sahəsində mövcud böhranlı vəziyyəti aradan qaldırmaq üçün Azərbaycan hökumətinin atdığı addımlar sırasında "Bakı istintaq məhkəməsinin və onun tabeliyində olan bütün müəssisələrin fəaliyyətinin bərpası haqqında" 01 oktyabr 1918-ci il tarixli qərarı mühüm yer tutur. Qərarda deyilirdi: "Bakı

şəhərində qanuni hökumət təyin edildikdən və Bakı vilayətində asayiş və əmniyyət bərpa edildiyindən anarşı zamanında müttəffiqnamələrlə (müxtəlif adlarla) təsis edilmiş məhkəmə və məhkəmə işlərini aparan komisyonlar ləğv edilsin. Bakı istintaq məhkəməsi və tabeliyində olan müəssisələrin fəaliyyəti və həmçinin prokurorluğun fəaliyyəti təcdid edilsin". Bununla da 1918-ci il oktyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən prokurorluq orqanlarının əsası qoyulmuşdur. Bu qərar, müstəqil Azərbaycanın ilk hüquq-mühafizə orqanlarının yaradılması istiqamətində atılan mühüm addımlardan biri olmuşdur [10, s. 93].

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 14 noyabr 1918-ci il tarixli qərarı ilə «Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə» təsdiq edilmiş və Azərbaycan Məhkəmə Palatası yanında prokuror və onun müəyyən sayda müavini vəzifələri təsis olunmuşdur [7, s. 87].

Azərbaycan Məhkəmə palatası yanında Prokuror Nəzarəti cinayət prosesində ittihamı müdafiə və məhkəmə orqanlarında qanunların düzgün tətbiqinə nəzarət funksiyalarını həyata keçirirdi [3, s. 48].

Həmin dövrdə prokurorluq orqanlarının əsas vəzifələri hüquq qaydasını təmin etmək, cinayətkarlığa qarşı mübarizə aparmaq və qanunların icrasına nəzarət etmək olmuşdur. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu qısa müddətli olduğuna görə, prokurorluq orqanları tam inkişaf edə bilməmişdir. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti bərqərar olduqdan sonra prokurorluq orqanları sovet hüquq sisteminə inteqrasiya olunmuşdur.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğuna son qoyulduqdan sonra milli dövlətin digər orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv edilmişdir.

Bakı Kommunası dövründə olduğu kimi, Azərbaycanda sovet hakimiyyətinin yaradıldığı ilk dövrdə də prokurorluq orqanları təşkil edilməmişdir. Lakin tarixən ona məxsus funksiyaları bu və ya digər orqanlar yerinə yetirmişdir.

Azərbaycan SSR-də xüsusi prokurorluq orqanlarının yaradılmasınadək qanunçuluğa nəzarət inqilab komitələri, Xalq Ədliyyə Komissarlığı, fəhlə-kəndli müfəttişlikləri və digər hakimiyyət orqanları tərəfindən həyata keçirilirdi.

Azərbaycan SSR-də sovet prokurorluğunun əsası Azərbaycan MİK-in "Azərbaycan SSR-in dövlət prokurorluğu haqqında" 11 iyul 1922-ci il tarixli dekreti ilə qoyulur. Dekretə əsasən, prokurorluq qanunu pozan qərarlardan şikayət verilməsi və təqsirli şəxslərə qarşı cinayət təqibinə başlanması yolu ilə bütün hakimiyyət orqanlarının, təsərrüfat idarələrinin, ictimai təşkilatların və ayrı-ayrı şəxslərin hərəkətlərinin qanuniliyinə nəzarəti həyata keçirirdi; istintaq orqanlarının işinə göz qoyurdu; məhkəmədə dövlət adından ittihamı müdafiə edirdi; həbsdə saxlamanın düzgünlüyünə nəzarət edirdi.

Dekretə əsasən təşkil edilən prokurorluq təşkilati cəhətdən müstəqil dövlət orqanı deyildi və şöbə qismində Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibinə daxil idi. Prokurorluğa eyni zamanda xalq ədliyyə komissarı olan

Respublika prokuroru başçılıq edirdi. O, hər il öz fəaliyyəti haqqında Azərbaycan MİK-in Rəyasət Heyəti qarşısında hesabat verirdi.

Azərbaycan MİK-in 17 noyabr 1923-cü il tarixli dekreti ilə Azərbaycan SSR-in məhkəmə quruluşu haqqında 1922-ci il Əsasnaməsinə dövlət prokurorluğu haqqında xüsusi bölmə daxil edildi. Xalq Ədliyyə Komissarlığı nəzdində prokurorluq şöbəsi təsis edildi.

Azərbaycan SSR MİK və XKS-in 8 avqust 1930-cu il tarixli qərarı ilə “Azərbaycan SSR Prokurorluğu haqqında Əsasnamə” təsdiq edilir. Xalq Ədliyyə Komissarlığının ləğv edilməsi ilə prokurorluq birbaşa Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə tabe edilir. Azərbaycanda prokurorluq üç il müddətində ədliyyə orqanları sistemindən ayrılmışdır.

1931-ci il avqustun 22-də ZSFSR MİK və XKS tərəfindən təsdiq edilmiş “ZSFSR Prokurorluğu haqqında Əsasnamə” ilə ZSFSR Prokurorluğu SSRİ Ali Məhkəməsi Prokurorluğundan fərqli olaraq, federasiyanın tərkibinə daxil olan respublika prokurorlarının işinə bilavasitə rəhbərlik etmək səlahiyyəti alır.

1933-cü ildə Xalq Ədliyyə Komissarlığının təsisi ilə Respublika Prokurorluğu yenidən onun tabeçiliyinə verilir, Respublika prokuroru funksiyasını isə əvvəlki kimi, xalq ədliyyə komissarı yerinə yetirməyə başlayır.

1933-cü il iyunun 20-də SSRİ MİK və XKS-in qərarı ilə SSRİ Ali Məhkəməsinin Prokurorluğu ləğv edilir və SSRİ Prokurorluğu yaradılır, 17 dekabr 1933-cü il tarixdə isə SSRİ Prokurorluğu haqqında ilk ümumittifaq qanunvericilik aktı qəbul olunur.

SSRİ Prokurorluğunun yaradılması ilə Azərbaycan SSR Prokurorluğu ikiqat tabeçilikdə oldu. O, bir tərəfdən SSRİ prokurorluğuna, digər tərəfdən Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığına tabe idi. Azərbaycan SSR Prokuroru Azərbaycan MİK-in razılığı ilə SSRİ Prokuroru tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirdi.

1936-cı il SSRİ Konstitusiyası və 1937-ci il Azərbaycan SSR Konstitusiyasında prokurorluğun hüquqi vəziyyəti təsbit edilir.

Azərbaycan SSR prokuroru və Nax. MSSR prokurorları SSRİ Baş prokuroru tərəfindən, rayon və şəhər prokurorları isə Azərbaycan SSR prokuroru tərəfindən, SSRİ Baş Prokurorunun təsdiqi ilə təyin edilirdilər. Bütün səviyyədən olan prokurorların vəkalət müddəti beş il müəyyən edilirdi.

1955-ci il mayın 24-də SSRİ-də “Prokuror nəzarəti Əsasnaməsi”nin qəbulu prokurorluğun inkişafında mühüm mərhələ oldu. Bu aktla prokuror nəzarətinin əsas təyinatı qanunçuluğun dönmədən təmini kimi təsbit edilirdi.

Azərbaycan SSR-də prokurorluq orqanlarının sisteminə Azərbaycan SSR Prokurorluğu, Naxçıvan MSSR Prokurorluğu, rayon və şəhər prokurorluqları daxil idi.

Azərbaycan SSR prokurorunun 3 avqust 1957-ci il tarixli 200 nömrəli əmrinə əsasən, məşvərətçi orqan kimi Azərbaycan SSR Prokurorluğunun Metodik Şurası yaradılır. Həmin tarixdə də “Azərbaycan SSR Prokurorluğunun Metodik Şurası haqqında Əsasnamə” təsdiq edilir.

1966-cı il dekabrın 14-də "Hərbi Prokurorluq haqqında Əsasnamə" təsdiq edilir. Əsasnaməyə müvafiq olaraq, hərbi prokurorluq sovet prokurorluq orqanlarının sisteminə daxil idi və SSRİ Baş prokuroruna hesabat verirdi.

Sonralar həm 1977-ci il SSRİ Konstitusiyasında, həm də 1978-ci il Azərbaycan SSR Konstitusiyasında əvvəlki konstitusiyalardan fərqli olaraq, ölkənin dövlət orqanlarından biri kimi prokurorluğa xüsusi diqqət yetirilmiş, prokurorluq orqanlarının təşkili və fəaliyyətinin əsas prinsiplərinin əks olunduğu müstəqil fəsil ayrılmışdır.

Prokuror nəzarətinin gücləndirilməsi sahəsində mühüm addımlardan biri 1979-cu il noyabrın 30-da onuncu çağırış SSRİ Ali Sovetinin ikinci sessiyasında "SSRİ Prokurorluğu haqqında" Qanunun qəbulu oldu. Qanunun qəbulundan sonra 1981-ci il avqustun 4-də Hərbi prokurorluq haqqında yeni Əsasnamə təsdiq edilir.

## *III. Prokurorluğun hüquq sistemində yenidən qurulması və formalaşmasında Heydər Əliyevin rolu*

Sovetlər imperiyasının dağılması ilə müstəqillik yoluna qədəm qoyan Azərbaycan dövlətində prokurorluq orqanlarında yeni mərhələ başlandı, hüquq sistemi yeni islahatlara və rəhbərliyə ehtiyac duyurdu. 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonrakı dövrdə, ölkənin hüquq-mühafizə sistemi, xüsusilə prokurorluq orqanları, köklü dəyişikliklər və inkişaf mərhələləri yaşamışdır. Bu inkişafın əsasını qoyan və ona rəhbərlik edən şəxsiyyət, müstəqil Azərbaycanın qurucusu və Ümummilli Lideri Heydər Əliyev olmuşdur. 1993-cü ildə hakimiyyətə gəldikdən sonra Heydər Əliyev artıq sosialist mülkiyyət münasibətlərinin bazar iqtisadi münasibətləri ilə ziddiyyət təşkil etdiyini, bu ziddiyyətlərin sosial-iqtisadi inkişafı ləngitdiyini çox aydın görürdü. Ona görə də müstəqil Azərbaycanda iqtisadi, siyasi böhrandan xilas olub, inkişaf və tərəqqi yoluna qədəm qoyulması üçün yeni ictimai münasibətlərin tənzimlənməsini, hüquqi islahatların aparılmasını çox vacib hesab etdi. Bu məramla da Ümummilli lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci ildə keçirdiyi müşavirə prokurorluqda reallaşdırılan müasir məzmunlu islahatların əsasını təşkil etmiş və qurumun tarixində dönüş nöqtəsi hesab edilmişdir [5, s. 178].

1918-ci ildə əsası qoyulmuş Azərbaycan Prokurorluğu məhz Heydər Əliyevin rəhbərliyi altında müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulmuş və formalaşmışdır. Bu dövrdə prokurorluq orqanlarına xüsusi diqqət göstərilmiş, qanunun aliliyinin təmin edilməsi istiqamətində onların müstəqilliyi və demokratik prinsiplər əsasında fəaliyyətinin təkmilləşdirilməsi üçün əhəmiyyətli addımlar atılmışdır. İbtidai istintaqın aparılması, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların tətbiq və icra olunmasına nəzarət prokurorluğun əsas vəzifələri kimi müəyyən edilmişdir. Bu da öz növbəsində hüquq-mühafizə sisteminin daha effektiv və şəffaf olmasını təmin etmişdir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsinə əsasən 1992-ci il avqust ayının 26-da keçmiş SSRİ-nin prokurorluq orqanlarının statusunu müəyyənləşdirən beş qanunvericilik aktının sonrakı dəyişiklik və əlavələrlə Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxlaması müəyyən edilmişdir. Azərbaycan Respublikasının "Siyasi partiyalar haqqında" 3 iyun 1992-ci il tarixli Qanununun müddəalarına əsasən prokurorluq orqanları əməkdaşlarının (köməkçi-texniki heyət istisna olmaqla) siyasi partiyaların üzvü ola bilməməsi müəyyən edilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının 176-cı maddəsinə 9 iyun 1992-ci ildə edilmiş dəyişikliyə müvafiq olaraq siyasi partiyalar, ictimai təşkilatlar və kütləvi hərəkatlar prokurorluğun nəzarətindən çıxarılmışdır. Lakin həmin dövrdə dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti, mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr, eləcə də digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının, partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının, həmçinin iqtisadi xarakterli və s. cinayətlərin çoxalması müşahidə olunmuş, cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlər geniş yayılmaqla bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər üçün adi hala çevrilmişdir. Bir çox hallarda hüquq-mühafizə orqanları tərəfindən cinayətlərin üstünün açılması üçün zəruri hərəkətlərin lazımi çevikliklə, qanunla müəyyən edilmiş formalarda və vaxtında yerinə yetirilməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verilməsi, öz səlahiyyətlərindən təsirli şəkildə istifadə edilməməsi əhalinin haqlı narazılığına, cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur. Ümumilli lider Heydər Əliyev bütün bunları, həmçinin respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirməyin, qanunçuluğu və hüquq qaydasını möhkəmləndirməyin zəruriliyini nəzərə alaraq, 9 avqust 1994-cü il tarixində "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərman imzalamışdır. Fərmanda hüquq-mühafizə orqanlarının rəhbərlərinə idarə, təşkilat və müəssisələrdə rüşvətxorluq faktlarının aşkar edilməsi, belə hallara yol vermiş vəzifəli şəxslərin qanuna müvafiq surətdə cəzalandırılması, rüşvətxorluq faktlarının qarşısının alınması üçün təsirli tədbirlər görülməsi tapşırılmışdır. Bununla yanaşı, prokurorluq və digər hüquq-mühafizə orqanlarına ağır cinayətlərin törədilməsində, habelə mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilmiş cinayətlərlə əlaqəsi olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyəti, onların banklardakı əmanətləri və hesabları üzrə əməliyyatlar haqqında müvafiq orqanların vəzifəli şəxslərindən zəruri sənəd və məlumatların götürülməsi, silah və hərbi sursat saxlayan bütün təşkilatlarda inventarlaşdırılmanın aparılması və nəticələrindən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməsi, banditizmin və mütəşəkkil cinayətkarlığın

geniş yayıldığı şəhər və rayonların siyahısı müəyyən edilməklə həmin ərazilərdə daxili işlər və milli təhlükəsizlik orqanlarının cinayətkarlığa qarşı mübarizədə xüsusi tədbirlər həyata keçirilməsi ilə bağlı əməliyyat xidməti fəaliyyətinin gücləndirilmiş iş rejiminə keçirilməsinin təmin edilməsi barədə və digər mühüm tapşırıqlar verilmişdir.

Qeyd etmək lazımdır ki, Prokurorluğun yenidən formalaşmasının əsası 1995-ci il noyabr ayının 12-də Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ilk dəfə ümumxalq səsverməsi referendum yolu ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə qoyulmuşdur. Konstitusiya Prokurorluğun rolunu daha aydın bir şəkildə müəyyən etdi, onun cinayət ədliyyə sistemindəki yerini və digər hakimiyyət qollarından müstəqilliyini təmin etdi. Konstitusiyanın 133-cü maddəsi Prokurorluğun səlahiyyət və məsuliyyətlərini, o cümlədən hüquq-mühafizə orqanlarına nəzarəti və insan hüquqlarının qorunmasını əks etdirir. 133-cü maddə Konstitusiyanın məhkəmə hakimiyyətinə həsr olunmuş VII fəslində nəzərdə tutulduğundan prokurorluq orqanlarının məhkəmə hakimiyyətinə aid olduğunu müəyyən etmişdir. Bu maddəyə əsasən Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların respublikanın Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşmiş orqandır [8]. 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Qanun Əsas Qanunun bu müddəasını 2-ci maddədə təkrar etməklə yanaşı, prokurorluğun məhkəmə hakimiyyəti sisteminə daxil olduğunu qeyd etmişdir [9]. Professor Z.Əsgərov qeyd edir ki, Azərbaycan Respublikası Konstitusiyasına görə məhkəmə hakimiyyətinə iki qrup orqanlar daxildir. Bura bilavasitə məhkəmələrin özləri və prokurorluq aiddir. Müəllifə görə, prokurorluğun işi məhkəmə hakimiyyəti ilə birbaşa bağlı deyil, bu orqan mərkəzləşdirilmiş müstəqil orqandır. Təşkilati cəhətdən heç bir orqandan, o cümlədən məhkəmədən asılı deyildir. Prokurorluq üzərində ali hakimiyyət orqanlarının nəzarəti müəyyənləşdirilmişdir [2, s. 343-344].

Qeyd etdiyimiz kimi, ADR-in Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli 277 nömrəli qərarı ilə Bakı dairə məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başladı ki, həmin tarix Azərbaycan prokurorluq orqanlarının yaranma tarixi oldu. Ümummilli liderimiz Heydər Əliyev hər il oktyabrın 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır. Azərbaycan Respublikasının Prokurorluq orqanlarının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev çıxış edərək cinayətkarlığın qarşısının alınmasında prokurorluğun xidmətlərindən bəhs edərkən qeyd etmişdir ki, 1992-ci ildə Azərbaycanda cinayətkarlığın səviyyəsi, demək olar ki, ən yüksək dərəcəyə gəlib çatmışdı. Bir ildə 22 min 440 cinayət baş vermişdi. Bu, müqayisədə əvvəlki bütün illərin hamısından çox olmuşdur. 1993-cü ildən Azərbaycanda aparılan işlər birinci növbədə respublikamızda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirməyə və bunun üçün də cinayətkarlıqla mübarizəni gücləndirməyə yönəldilmişdir. Bütün bu işlərdə hüquq-mühafizə

orqanlarının hamısı, o cümlədən Azərbaycan Prokurorluğu fəal iştirak etmişdir. Aparılan işlərin nəticəsini rəqəmlər artıq özü özlüyündə göstərir. Keçən 1997-ci ildə cinayətkarlıq 1992-ci ilə nisbətən xeyli azalmışdır. 1992-ci ildə 22 min 450, 1997-ci ildə isə 16 min 400 sayda cinayət baş vermişdir [6].

Prokurorluq orqanlarının fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası və "Prokurorluq haqqında" Qanunla yanaşı, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanun, "Dövlət qulluğu haqqında" Qanun, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Mülki Prosessual Məcəlləsi, digər normativ hüquqi aktlar, respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir. 30 dekabr 1999-cu ildə qüvvəyə minmiş 7 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu prokurorluğun fəaliyyət istiqamətlərini, səlahiyyət dairəsini və vəzifələrini müəyyənləşdirmişdir. Bu qanun prokurorluğun daha da demokratikləşməsini və qanunçuluğun real təminatçısına çevrilməsini təmin etmişdir. Heydər Əliyev siyasətinin davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövründə isə, prokurorluğun müasirləşdirilməsi və inkişafı istiqamətlərində daha da geniş islahatlar aparılmışdır. Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" qanunları qəbul edilmiş, Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamə təsdiq edilmişdir.

Onu da qeyd edək ki, prokurorluq orqanlarının ədalət mühakiməsinin həyata keçirilməsində rolu əsasən cinayət mühakimə icraatı ilə bağlıdır. AR CPM-in 21.3-cü maddəsinə müvafiq olaraq cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyil, ittihamı sübuta yetirmək, şübhəli və təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür. Avropa Şurasının Nazirlər Komitəsinin 2000-ci ilin oktyabr ayının 6-da qəbul etdiyi Cinayət mühakimə sistemində prokurorluğun roluna dair tövsiyələrin giriş hissəsinin 6-cı abzasında prokurorluğun cinayət mühakimə sistemində müəyyənedici (təyinedici, şərtləndirici) rol oynadığı göstərilir.

Prokurorluq işçilərinin rifahının yaxşılaşdırılması Heydər Əliyevin və sonradan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilmiş islahatların mühüm bir hissəsidir. Bu islahatlar, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır. 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsində xüsusi önəm daşımışdır.

### *IV. Müasir dövrdə Azərbaycan Respublikası Prokurorluğunun institusional inkişafı*

İnstitusional inkişaf prokurorluğun təkamülünün mühüm aspektlərindən biri olmuşdur. Bu, infrastrukturun müasirləşdirilməsi, qabaqcıl informasiya texnologiyalarının tətbiqi və insan resurslarının artırılması daxil olmaqla geniş spektri əhatə edir. Prokurorların peşəkar bacarıqlarını təkmilləşdirmək və onların beynəlxalq standartlara uyğun təcrübələrini təmin etmək məqsədi ilə təlim proqramları və beynəlxalq əməkdaşlıq mühüm rol oynamışdır.

Prokurorluğun inkişaf istiqamətlərindən birini də Elektron Prokurorluq İnformasiya Sisteminin tətbiqi təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 may 2021-ci il tarixli Fərmanı ilə "Elektron prokurorluq" informasiya sisteminin yaradılması nəzərdə tutulmuşdur. Bu Fərmanla prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sistemi haqqında Əsasnamə təsdiq edilmişdir. Əsasnamədə "Elektron prokurorluq" informasiya sisteminin formalaşdırılmasının, aparılmasının, digər qurumların informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyasının, həmçinin informasiya sistemi ilə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsasları müəyyən edilmişdir. Bu sistem, prokurorluq orqanlarının fəaliyyətində şəffaflıq və effektivliyi artırmaq məqsədi ilə yaradılmışdır. Elektron Prokurorluq İnformasiya Sistemi vasitəsilə cinayət işlərinin idarə olunması, istintaq materiallarının saxlanması və analiz edilməsi, vətəndaş müraciətlərinin qəbulu və cavablandırılması kimi proseslər rəqəmsal formata keçmişdir. Bu sistemin tətbiqi hüquq-mühafizə orqanlarının fəaliyyətində operativliyin artırılması və resursların daha səmərəli idarə olunması üçün mühüm əhəmiyyətə malikdir. Elektron sənəd dövriyyəsi sisteminin tətbiqi, prokurorluq əməkdaşlarının işini asanlaşdırmış və hüquqi prosedurların şəffaflığını təmin etmişdir.

Azərbaycan Respublikası prokurorluğun fəaliyyətinin əsas istiqamətlərindən biri korrupsiyaya qarşı mübarizə işidir. Hüquq sistemində korrupsiyaya qarşı mübarizə istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinin təmin edilməsi üçün ixtisaslaşdırılmış antikorrupsiya strukturlarının formalaşdırılmasını zəruri etmişdir. Bu istiqamət yalnız korrupsioner məmurların cəzalandırılmasını deyil, həm də şəffaf və hesabatlı dövlət idarəçiliyinin yaradılmasını nəzərdə tutur. Belə ki, 2004-cü ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılmışdır. Bu idarənin yaradılması korrupsiyaya qarşı mübarizənin sistemli və ardıcıl şəkildə aparılması üçün mühüm addım olmuşdur. Baş İdarə korrupsiya cinayətlərinin aşkarlanması, araşdırılması və cəzalandırılması istiqamətində geniş fəaliyyət göstərmişdir. 2011-ci ildə idarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı, Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan Prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmiş, bu təcrübə Baş İdarənin

fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırmışdır. Beləliklə, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş 11.1-ci maddənin tələbinə görə, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ixtisaslaşdırılmış prokurorluq orqanı olmaqla, korrupsiya hüquqpozmaları ilə əlaqədar məlumatlara baxır, korrupsiya ilə bağlı cinayətlər üzrə ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, korrupsiyaya qarşı mübarizənin vəziyyətini təhlil edir, ümumiləşdirir və bu sahədə işin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlayır, həmin fəaliyyəti həyata keçirərkən normativ hüquqi aktlarda və onların layihələrində korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən etdikdə, onların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırır, maarifləndirmə işlərini, profilaktik tədbirləri, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq digər səlahiyyətləri yerinə yetirir.

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə vətəndaşların müraciətlərini qəbul etmək üçün "161 - Qaynar xətt" əlaqə mərkəzi yaradılmışdır. Bu mərkəz vasitəsilə vətəndaşlar korrupsiya halları barədə məlumatlar bildirə bilərlər. Bu cür tədbirlər, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq və ictimaiyyətin iştirakını təmin etmək məqsədi daşıyır. 2024-cü ildə vətəndaşların müraciətlərinə baxılması, "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da gücləndirilməsi, korrupsiyaya daha çox məruz qalan sahələrlə bağlı davamlı təhlillərin aparılması, digər hüquq-mühafizə orqanları və Baş Prokurorluğun aidiyyəti struktur qurumları ilə birgə fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində müvafiq işlər davam etdirilmişdir [1].

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətində informasiya texnologiyalarının rolu da böyükdür. Elektron Prokurorluq İnformasiya Sistemi vasitəsilə korrupsiya halları haqqında vətəndaş müraciətlərinin qəbul edilməsi və araşdırılması prosesi sürətləndirilmiş və şəffaflıq artırılmışdır. Bu sistem vasitəsilə müraciət edən şəxslərin anonimliyi qorunur və məlumatların konfidensiallığı təmin edilir.

Bununla yanaşı, korrupsiya ilə mübarizədə beynəlxalq əməkdaşlıq da mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Beynəlxalq Antikorrupsiya Akademiyasının üzvü olmaqla, korrupsiya ilə mübarizədə beynəlxalq təcrübələrdən istifadə etmiş və bu sahədə qarşılıqlı əməkdaşlıq qurmuşdur. Ölkə daxilində isə, müvafiq dövlət qurumları ilə koordinasiyalı şəkildə çalışaraq korrupsiyaya qarşı mübarizə tədbirlərini gücləndirmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar çərçivəsində korrupsiya ilə mübarizədə əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. "Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında" 2012-ci il tarixli Fərmanı bu sahədə atılan mühüm addımlardan biri olmuşdur. Fərmanda korrupsiya hallarının araşdırılması və cəzalandırılması,

korrupsiya risklərinin azaldılması və şəffaflığın artırılması ilə bağlı tədbirlər ətraflı şəkildə təsbit edilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilən nailiyyətlər Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə də müsbət qiymətləndirilməsinə səbəb olmuşdur. Bu, ölkənin beynəlxalq imicini yaxşılaşdırmış və xarici investisiyaların cəlb edilməsinə dəstək olmuşdur. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2024-cü ilin I yarımilinə həsr olunmuş geniş əməliyyat müşavirəsində qeyd olunmuşdur ki, Baş İdarənin əməliyyat qurumları tərəfindən 93 cinayət işi başlanıb, keçirilmiş 28 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 25 şəxs cinayət başında yaxalanıb, habelə axtarışda olan 4 nəfər saxlanılıb. Hesabat dövrü ərzində idarədə 150 şəxs barəsində 111 cinayət işinin ibtidai istintaqı tamamlanıb, onlardan 122 şəxs barəsində 93 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılıb, qalanları isə hazırda məhkəmə baxışındadır. Hesabat dövrü ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 61 milyon 909 min 129 manat məbləğində maddi ziyandan 40 milyon 386 min 399 manatının ödənilməsi təmin olunub. Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 8 milyon 32 min 611 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunub [1].

Prokurorluğun fəaliyyətinin digər mühüm istiqaməti insan hüquqlarının qorunmasıdır. Prokurorluq insan hüquqlarının qorunması və əsas azadlıqların təmin edilməsi istiqamətində müxtəlif təşəbbüslər həyata keçirir. Belə fəaliyyət insan hüquqlarının qorunmasına nəzarət, hüquq pozuntularının araşdırılması və hüquq pozuntusu törədənlərin məsuliyyətə cəlb olunmasını əhatə edir.

Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi Ulu Öndər Heydər Əliyevin diqqətdə saxladığı prioritet sahələrdən biri olmuşdur. Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlardan biri, şübhəsiz ki, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulmuş, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq, Azərbaycanda bu cəza növü tamamilə ləğv edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ölkəmizdə ilk dəfə olaraq insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsini gündəmə gətirmişdir. Beləliklə, Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Ombudsman təsisatı yaradılmışdır. Bu institutun yaradılması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ölkədə böyük irəliləyişə səbəb olmuşdur.

*V. Nəticə*

Azərbaycan Respublikası Prokurorluğu, dövlətin hüquq-mühafizə orqanı olaraq, qanunçuluğun və hüquq qaydalarının qorunmasında mühüm rol oynayır. Prokurorluğun formalaşması və inkişafı, ölkənin hüquqi sisteminin gücləndirilməsi, ədalət mühakiməsinin təkmilləşdirilməsi və insan hüquqlarının müdafiəsi ilə sıx əlaqəlidir.

Prokurorluq orqanlarının təşkilati strukturu, fəaliyyət sferası və qanunvericilik bazasının təkmilləşdirilməsi ilə yanaşı, bu qurumun peşəkar kadr potensialının inkişafı və müstəqilliyinin artırılması da vacib prioritetlərdən biri olmuşdur. Bu proseslər həm də beynəlxalq standartlara uyğunluğun təmin edilməsi və Azərbaycan Respublikasının hüquq sisteminin dünya miqyasında tanınması məqsədini güdür.

Gələcəkdə, Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin daha da mükəmməlləşdirilməsi, xüsusilə cinayətkarlıqla mübarizədə yeni texnologiyaların tətbiqi və hüquqi təminatların gücləndirilməsi zəruridir. Bununla yanaşı, hüquq-mühafizə orqanları arasındakı əməkdaşlığın inkişaf etdirilməsi, vətəndaşların hüquqlarının müdafiəsi və ədalətli məhkəmə qərarlarının qəbul edilməsi istiqamətində yeni addımların atılması önəmlidir.

Yekun olaraq, Azərbaycan Respublikasının prokurorluq sistemi, ölkənin hüquqi dövlət quruculuğunda, həmçinin cəmiyyətdə hüquq təhlükəsizliyinin təmin olunmasında mühüm yer tutur və müasir dövrün tələblərinə uyğun olaraq inkişaf etməyə davam edir. Bu yolda atılacaq hər bir addım, ölkənin hüquqi dövlətə olan sadiqliyini və ədalətin təmin edilməsini daha da gücləndirəcəkdir.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri və irsi prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində mühüm rol oynamış, ölkənin hüquq-mühafizə sisteminin gücləndirilməsinə və qanunun aliliyinin təmin edilməsinə xidmət etmişdir. Müstəqillik dövründə, prokurorluq, dövlətçiliyimizin və xalqın maraqlarına sadiq qalan, hüququn aliliyini və insan hüquqlarının müdafiəsini özündə cəmləşdirən bir qurum kimi inkişaf etmişdir. Eyni zamanda Azərbaycanın müstəqillik dövründə prokurorluğun fəaliyyətinin müasir dövrün tələblərinə uyğun olaraq inkişafı və yenidən qurulması, bu sahədəki islahatların önəmli hissəsidir. Bu gün Azərbaycan prokurorluğu ölkənin hüquqi sisteminin inkişafında əhəmiyyətli rol oynayır və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. An Operational Meeting Dedicated to the First Half of 2024 Was Held at the General Directorate for Combating Corruption. Azerbaijan Newspaper, No. 148 (9603), July 17, 2024 (in Azerbaijani / Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. Azərbaycan qəzeti, № 148 (9603), 17 iyul 2024-cü il).

URL: https://azerbaijan-news.az/index.php/az/posts/detail/korrupsiyaya-qarsi-mubarize-bas-idaresinde-2024-cu-ilin-i-yarimiline-hesr-olunmus-emeliyyat-musaviresi-kecirilib-1721219418 (last access 21.05.24 ).

2. Asgarov Z. Constitutional Law. Textbook. Baku: Baku University Press, 2024, 608 pages *(in Azerbaijani / Əsgərov Z. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2024, 608 s.)*
3. Damirov M. The Prosecutor's Office of Azerbaijan: History and Modernity. Baku, 1997. 192 pages *(in Azerbaijani / Dəmirov M. Azərbaycan prokurorluğu. Tarix və müasirlik. Bakı, 1997. 192 səh.).*
4. Gafarov M., Eyvazov H. Law Enforcement Agencies. Textbook. Baku: Qanun Publishing House, 2024, 800 pages *(in Azerbaijani / Qəfərov M., Eyvazov H. Hüquq-mühafizə orqanları. Dərslik. Bakı: Qanun Nəşriyyatı, 2024, 800 s.)*
5. Heydar Aliyev and the Prosecutor's Office of Azerbaijan. Baku: "Sharq-Qerb," 2023, 468 pages *(in Azerbaijani / Heydər Əliyev və Azərbaycan Prokurorluğu. Bakı: "Şərq-Qərb", 2023, 468 s.).*
6. Legal Violations in Azerbaijan. Baku: "Chashioglu EI-MMC," 2023, 115 pages *(in Azerbaijani / Azərbaycanda hüquqpozmalar. Bakı: "Çaşıoğlu Eİ-MMC", 2023, 115 s.).*
7. Nasirov C. About the History of the Legislative Activities of the Azerbaijan People's Republic / Azerbaijani Prosecutor's Office. 2018. No. 1. Pp. 84-87 *(in Azerbaijani / Nəsirov C. Azərbaycan Xalq Cümhuriyyətinin qanunvericilik fəaliyyəti tarixindən / Azərbaycan prokurorluğu.- 2018.- № 1.- S. 84-87.)*
8. The Constitution of the Republic of Azerbaijan *(in Azerbaijani / Azərbaycan Respublikasının Konstitusiyası).*
URL: https://e-qanun.az/framework/897 (last access 21.05.24).
9. The Law of the Republic of Azerbaijan "On the Prosecutor's Office" *(in Azerbaijani / "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu).*
URL: https://e-qanun.az/framework/5229 (last access 21.05.24).
10. The Prosecutor's Office of Azerbaijan: A Century of Development History. Baku: "Sharq-Qerb," 2018, 640 pages *(in Azerbaijani / Azərbaycan Prokurorluğu: Bir əsrlik inkişaf tarixi. Bakı: "Şərq-Qərb", 2018, 640 s.).*

## Directions of formation and development of the Prosecutor's Office of the Republic of Azerbaijan

KARAM MANSUROV*

**Abstract**

*The article analyzes in detail the reforms implemented to develop the structure of the prosecutor's office, expand its areas of activity and ensure its independence. In order for the prosecutor's offices of Azerbaijan to meet the challenges of the modern era, personnel training and improvement, the application of new technologies and other reforms in the legal system are at the forefront. The prosecutor's office plays an important role in ensuring justice in the country, protecting the rule of law and protecting civil rights. This article also puts forward proposals on the harmonization of law enforcement agencies of Azerbaijan with international law and the directions of development of the prosecutor's office in the future. The article "Formation and Development Directions of the Prosecutor's Office of the Republic of Azerbaijan" examines the historical stages of the establishment and development of the country's prosecutorial bodies. It provides a detailed account of the history, legal, and organizational structure of the Prosecutor's Office, along with the challenges faced in the modern era and the corresponding legal reforms. The article emphasizes the role of the Prosecutor's Office as a key law enforcement body in a democratic society, ensuring legality and the rule of law. It also highlights the importance of improving the functioning of the prosecutor's office in line with contemporary demands, enhancing the professional skills of prosecutors, and the significance of reforms within the law enforcement system. The article provides a detailed discussion on the establishment and formation of the Azerbaijani Prosecutor's Office, originally founded in 1918, with a particular focus on its reconstruction and modernization under the leadership of Heydar Aliyev. During Heydar Aliyev's leadership, significant changes were made in the functioning of the Prosecutor's Office, legal reforms were carried out, and necessary measures were taken to ensure that the Prosecutor's Office operated as an independent, strong, and effective body. As a result of these reforms, the Prosecutor's Office of Azerbaijan became an independent and reliable institution among law enforcement bodies, playing a crucial role in ensuring the rule of law and combating crime.*

**Keywords:** *prosecutor's office, judiciary, courts, justice, investigation, corruption, human and civil rights, prosecutor's supervision, fight against crime.*

## Прокуратура Азербайджанской Республики: направления формирования и развития

КАРАМ МАНСУРОВ**

**Резюме**

*В статье подробно анализируются реформы, проводимые в связи с развитием структуры прокуратуры, расширением сфер ее деятельности и обеспечением ее независимости. Обучение и совершенствование кадров, внедрение новых технологий и другие реформы в правовой системе находятся на переднем плане, чтобы органы прокуратуры Азербайджана могли ответить на вызовы современной эпохи. Прокуратура играет важную роль в обеспечении справедливости в стране, защите законности и защите гражданских прав. В данной статье также даются предложения по приведению правоохранительных органов Азербайджана в соответствие с*

* PhD Candidate / Baku State University / mansurovkerem@yahoo.com

** Докторант / Бакинский Государственный Университет / mansurovkerem@yahoo.com

*международным правом и направлениям развития прокуратуры в будущем. Статья рассматривает этапы становления и развития органов прокуратуры страны. Приводится исторический обзор прокуратуры, ее юридическая и организационная структура, а также вызовы, с которыми сталкивается прокуратура в современную эпоху, и соответствующие юридические реформы. Статья подчеркивает важность прокуратуры как одного из главных правоохранительных органов в демократическом обществе и ее роль в обеспечении законности и правопорядка. Также особое внимание уделяется совершенствованию деятельности прокуратуры в соответствии с требованиями современности, повышению профессиональных навыков прокуроров и значению реформ в правоохранительной системе. Статья подробно рассматривает процесс восстановления и формирования прокуратуры страны, начиная с 1918 года, и подчеркивает, что именно при руководстве Гейдара Алиева прокуратура была перестроена в соответствии с требованиями современности. В период правления Гейдара Алиева были проведены значительные изменения в деятельности прокуратуры, осуществлены юридические реформы, и предприняты необходимые меры для того, чтобы прокуратура функционировала как независимый, сильный и эффективный орган. В результате этих реформ, прокуратура Азербайджана стала независимым и надежным институтом среди правоохранительных органов, играющим важную роль в обеспечении законности и борьбе с преступностью.*

**Ключевые слова:** *прокуратура, юстиция, суды, правосудие, следствие, коррупция, права человека и гражданина, прокурорский надзор, борьба с преступностью.*

**Redaksiyaya daxil olma tarixi: 01.06.2024**
**Çapa qəbul: 24.12.2024**